UOT 94(479.24)

ARİFƏ ADIGÖZƏLOVA
Bakı Dövlət Universiteti,
Azərbaycanın yeni və ən yeni tarixi kafedrasının dosenti
adigezelova@bk.ru

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MİLLİ SİYASƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/58-64

1918-ci il 28 mayda qəbul edilmiş İstiqlal bəyannaməsində bütün millətlərin hüquq bərabərliyini elan edən Azərbaycan hökuməti dövlət quruculuğunda bu prinsipə əməl edirdi. Dövlət idarələrində özgə millətlərin siyasi cəhətdən etibarlı nümayəndələrinin fəaliyyətinə heç bir məhdudiyyət qoyulmamışdı. Lakin özlərini hələ də Rusiya təbəələri hesab edən rus millətçiləri Azərbaycanın dövlət müstəqilliyini tanımaq istəmirdilər. Onlar "Vahid, bölünməz Rusiya" kimi böyük dövlətçilik amalları uğrunda mübarizə aparırdılar.

Azərbaycanda yaşayan ermənilər Qarabağ, Zəngəzur, Naxçıvan ərazilərində qan tökməkdə idilər. Qarabağ ermənіləri Ararat Respublikasına birləşmək uğrunda mübarizə aparırdılar. Lakin Azərbaycan hökuməti ardıcıl siyasəti yeridərək, separatizm hallarının qarşısını alır və hər yerdə öz hakimiyyətini bərqərar edirdi.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, milli siyasəti, milli azlıqlar, separatizm, ərazi iddiaları, milli münaqişə.

Giriş: Çar Rusiyası dövründə Qafqazda tətbiq edilən inzibati ərazi bölgüsü və quberniyalarda türklərin, gürcülərin və ermənilərin qarışıq şəkildə məskunlaşması sonralar Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının sərhədlərinin müəyyənləşdirilməsində çətinlik yaradırdı. Azərbaycan hökuməti milli münaqişələrə son qoyulması məqsədilə hələ 1918-ci il mayın 29-da öz tarixi ərazisi olan İrəvan şəhərini ermənilərə güzəştə getdiyini bəyan etmişdi. [9, f.970, s.1, iş 5, v.4].

1918-1920-ci illərdə Azərbaycanla Ermənistan və Gürcüstan respublikaları arasında mübahisəli ərazilər (İrəvan quberniyasının qərbi, Naxçıvan qəzası, Şərur-Dərələyəz qəzası, Zaqatala dairəsi, Sığnax qəzası, Qarayazı çölü, Borçalı qəzası, Qazax qəzası, Qarabağın dağlıq hissəsi, Zəngəzur qəzası) problemi meydana çıxmışdı. Həmin ərazilərin bəzilərində mübahisələr dinc yolla, yəni əhalinin öz müqəddəratını azad təyinetmə prinsipi ilə həll edildiyindən, silahlı müdaxiləyə ehtiyac qalmamışdı. Lakin Ermənistan tərəfi guya qədimdə həmin mübahisəli ərazilərin "Böyük Ermənistan" ərazisinə daxil olduğunu iddia edərək məsələni silah gücünə həll etməyə çalışırdı. Gürcüstan tərəfi isə əsasən "tarixilik prinsipləri" və "əlverişli iqtisadi şəraiti" ön plana çəkir, əvvəlki inzibati ərazi bölgüsünün saxlanmasına çalışırdı. [5, s.152]

Azərbaycan Xalq Cümhuriyyətinin bütün ərazisində (113,9 min km^2) əhalinin ümumi sayı 3,3 milyondan çox idi. Azərbaycan Cümhuriyyətinin mübahisəsiz ərazisində (97,3 min km^2) yaşayan əhalinin ümumi sayı 2.861.862 nəfərə bərabər idi. Azərbaycanın türk-müsəlman əhalisi 68,2%, ermənilər – 21,4%, gürcülər – 0,6%, ruslar – 7,5%, digər xalqların nümayəndələri isə 2,3%-ni təşkil edirdi.

Zaqatala əhalisinin 91,8 %-ni müsəlmanlar (əsasən türklər və ləzgilər), 5%-ni gürcülər, 2,7%-ni ermənilər təşkil etməsinə baxmayaraq, Gürcüstan Respublikası bu əraziyə əsassız iddia irəli sürmüşdü [1, s.51]. Lakin Zaqatala əhalisi 1918-ci il 28 iyunda Azərbaycana birləşmək haqqında öz qərarını Milli Şura vasitəsilə elan etmişdi. AXC hökuməti iyunun 30-da Zaqatala dairəsinin Azərbaycana birləşməsi haqqında qərar qəbul etmişdi [1, s.28].

Qarayazı çölü, Sığnax və Borçalı qəzalarının etnik tərkibinə rəğmən (burada da türklər çoxluq təşkil edirdi) gürcü qoşunları alman hərbi qüvvələrinin köməyilə bu əraziləri ələ keçirmişdilər [5, s.153-154].

Ermənistan Respublikasının Qarabağ, Qazax, Zəngəzur, Naxçıvan və Şərur-Dərələyəz qəzalarına ərazi iddiaları var idi. 1918-ci ilin yazından etibarən Qarabağa, eləcə də Zəngəzur, Naxçıvan və

Şərur-Dərələyəzə hücum edən Ermənistan silahlı qüvvələri həmin əraziləri azərbaycanlılardan təmizləməyi və Ermənistana birləşdirməyi qarşılarına məqsəd qoymuşdular. Paris sülh konfransında Azərbaycan nümayəndə heyəti Naxçıvan, Şərur-Dərələyəz, Sürməli və İrəvan qəzalarının əhalisinin milli tərkibi haqqında rəsmi sənəd təqdim edərək, həmin ərazilərin Ermənistanın idarəçiliyinə verilməsinə etiraz etmiş, İrəvan qəzasının bir hissəsinin, qalan qəzaların bütünlüklə Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bildirmişdi [9, f.970, s.1, iş 142, v.56-63].

Qars vilayəti əhalisi (1,5 milyon türk-müsəlman) Azərbaycanla etnik bağlılığını əsas götürərək, dəfələrlə vilayətin Azərbaycanın tərkibinə qatılması üçün Azərbaycan hökumətinə müraciət etmişdir. Paris sülh konfransında Azərbaycan nümayəndə heyəti Batum və Qars vilayətlərini birləşdirən müstəqil respublikanın yaradılmasını irəli sürmüşdü.

Axıska qəzası əhalisinin milli tərkibi 52 min türk, 23 min erməni və 10 min gürcüdən ibarət idi. Qəzanın Gürcüstana birləşməsini istəməyən türk əhalisi 1919-cu ilin yazına kimi partizan müharibəsi aparmışdı. Axıska qəzası Borçalı qəzasına bitişik olduğundan, Azərbaycanla Türkiyə arasında dəhliz rolunu oynayırdı. Azərbaycan nümayəndə heyəti Paris sülh konfransında Axıska qəzasının Azərbaycana qatılması məsələsini qaldırmışdı [11].

Əhalisinin etnik tərkibini və Çar Rusiyası dövründə Dağıstana verilməsini nəzərə alaraq, Azərbaycan nümayəndə heyəti Paris sülh konfransına təqdim etdiyi memorandumda Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla Qaytaq-Tabasaran qəzasının bir hissəsini, Kür və Samur nahiyyələrinin bir hissəsini də Azərbaycan ərazisi hesab etdiyini bildirmişdi [13, s.203].

Azərbaycan Xalq Cümhuriyyəti ərazi münaqişələri səbəbindən Ermənistan tərəfindən xüsusilə ağır təcavüzə məruz qalmışdı. 1918-ci ildə erməni silahlı qüvvələri tərəfindən Bakı quberniyasında 229, Gəncə quberniyasında 272, İrəvan quberniyasında 211, Qars vilayətində 82 yaşayış məntəqəsi dağıdılmış, 100 mindən artıq türk-müsəlman əhali soyqırıma məruz qalmış, 100 minlərlə əhali öz yurdundan qaçqın düşmüşdür [9, f.894, s.10, iş 80, v.49-56; f.970, s.10, iş 16, v.1-9]. Buna baxmayaraq, Azərbaycan Cümhuriyyəti sivil qaydada, diplomatik yolla öz tarixi torpaqlarını qoruyub saxlamağa və dinc yanaşı yaşamaq prinsipi ilə mehriban qonşuluq siyasəti yeritməyə çalışırdı. Lakin Azərbaycan Cümhuriyyətinin sərhəd məsələlərini qarışıq komissiya vasitəsilə həll etmək təklifini nə Gürcüstan, nə də Ermənistan respublikaları qəbul etmək istəmirdi. Gürcüstanla ərazi münaqişəsi müharibəyə gətirib çıxarmasa da, Ermənistanla qarşıdurma qaçılmaz oldu. Lakin hər iki qonşu respublika ilə ərazi-sərhəd bölgüsündə ən çox itirən Azərbaycan oldu [5, s.197].

Azərbaycan Cümhuriyyətinin milli və dini siyasəti. 1918-ci il mayın 28 də İstiqlal bəyannaməsini elan edən Azərbaycan Xalq Cümhuriyyəti çoxmillətli tərkibini nəzərə alaraq, bütün millətlərin hüquq bərabərliyini qəbul etdi. Belə ki, bəyannamənin 4-cü maddəsində bildirilirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyyətindən, dinindən, sosial vəziyyətidən və cinsindən asılı olmayaraq, bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqları təmin edir. 5-ci maddə isə bəyan edirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərə azad inkişafı üçün geniş imkanlar verir [9, f.894, siy.10, iş 192, vər.1].

Azərbaycan Cümhuriyyəti üçün daxili və xarici düşmənlərin qəsdlərinin hələ real təhlükə olduğu bir şəraitdə dövlət hakimiyyətinin milliləşdirilməsi prosesi çox çətin və məsuliyyətli bir iş idi: bir tərəfdən milli və sinfi düşmənçilik zəminində əhali arasında baş verən iğtişaşları yatırmaq, yeni dövlət hakimiyyətinə mane olan ünsürləri cəmiyyətdən təcrid etmək, şəxsi və mülki təhlükəsizliyi təmin etmək lazım gəlirdi, digər tərəfdən türk dilinin dövlət dili kimi tanınması haqqında 27 iyun 1918-ci il tarixli qərara əsasən bütün hökumət, ictimai və digər idarələr milliləşdirilməli idi. Xalq kütlələri dünənə qədər onların qanını tökən millətlərin nümayəndələrini dövlət idarələrində görmək istəmirdi. Əlbəttə ki, 1917-ci ilin payızından başlayaraq Andranikin başçılığı altında İrəvanda, Zəngəzurda, Qarabağda, 1918-ci ilin yazında Bakı Sovetinin rəhbərliyi altında bolşevik-daşnak hərbi hissələrinin Bakı quberniyasında törətdiyi soyqırımlardan sonra xalqın bu istəyi təbii idi. Ermənilər və ruslar Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən ona qarşı düşmən mövqedə duraraq mübarizə aparırdılar.

Milli kadr çatışmazlığı və dövlət idarələlərində çalışan qulluqçuların əksəriyyətinin türk dilini və qrammatikasını bilməməsi üzündən milliləşmə tam mənada həyata keçirilmirdi. Kargüzarlıq işləri həm türk, həm də rus dilində aparılırdı. Dövlət idarələrində özgə millətlərin siyasi cəhətdən etibarlı

nümayəndələrinin fəaliyyətinə heç bir məhdudiyyət qoyulmamışdı. Lakin özlərini hələ də Rusiya təbəələri hesab edən rus millətçiləri Azərbaycanın dövlət müstəqilliyini tanımaq istəmirdilər. Onlar vahid, bölünməz Rusiya kimi böyük dövlətçilik amalları uğrunda mübarizə aparırdılar.

Daxili işlər naziri Behbud xan Cavanşir rus və erməni milli şuralarının fəaliyyəti ilə bağlı qeyd edirdi ki, "müxtəlif milli komitələr onlara verilən azadlıq və nəzarətsizlikdən istifadə edərək dövlətimizə qarşı təbliğat aparırlar. Halbuki, ölkə hərbi vəziyyətdə ikən heç bir təşkilata və ya şəxsə siyasətlə məşğul olub aranı qarışdırmaq ixtiyarı verilməyib" [10, 1918, 1 noyabr].

I Dünya müharibəsinin Azərbaycanı dəstəkləyən Osmanlı imperiyasının məğlubiyyəti ilə nəticələnməsi və keçmiş Rusiya imperiyası ilə bir blokda vuruşan Müttəfiq dövlətlərin hərbi hissələrinin Qafqaza gəlişi ilə rus və erməni milli şuralarının Azərbaycanın dövlət müstəqilliyinə düşmən mövqeyi yenidən kəskinləşdi. İngilislərin himayəsi ilə L.Biçeraxovun hərbi dəstəsi Bakıya daxil olduqdan sonra isə rus şovinizmi daha da gücləndi. Rus və erməni Milli şuraları Şimali Qafqazdakı denikinçilərlə də əlaqə saxlayır, Azərbaycan dövlətçiliyinə qarşı qəsdlər hazırlayırdı. Bu məsələ ilə əlaqədar hökumət başçısı Fətəli xan Xoyski general Tomsona müraciət edərək "Bakı şəhərində Könüllü Ordu nümayəndələrinin xristian əhalini silahlandırıb hərbi təlim keçirməsini, Amazaspın əli silah tutan erməni əhalisini siyahıya alıb hərbi qüvvələr təşkil etməsini dövlət suverenliyini pozan və müsəlman əəhaliyə qarşı yönələn akt" kimi qiymətləndirilir və dərhal hərbi hissələrin təşkilinin qarşısını almağı və onun təşkilatçılarını Azərbaycandan qovmağı" zəruri hesab edirdi [9, f.894, s.10, iş 108, v.8-9]. Tezliklə, Azərbaycan hökumətinin tələbi yerinə yetirildi və Biçeraxovun hərbi dəstələri şəhərdən çıxarıldı.

Azərbaycanda məskun olan qeyri-yerli əhalinin düşmən münasibətinə baxmayaraq Milli Şuranın 1918-ci il noyabrın 19-da keçirilən iclasında parlamentdə bütün millətlərin təmsil olunmasına qərar verilmişdi. 1918-ci il noyabrın 29-da M.Ə.Rəsulzadə "Bütün Azərbaycan əhalisinə" müraciətdə deyirdi:"...bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı bir tərəfə qoyaq. Tarix hamımızı bir yerdə yaşamaq məcburiyyətində qoyub. Yeni başlayan həyatın təbii məşəqqətlərini asanlıqla çəkmək üçün yaşayışımızı aqil və insani əsaslar üzərində quraq, bir-birimizi sevək, ehtiram edək. Milli və məzhəb fərqlərinə baxmayaraq, bütün Azərbaycan vətəndaşları bir vətənin övladlarıdır. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və öz səadətlərinə birlikdə yetişmək üçün onlar bir-birinə əl uzatmalı və yardım etməlidirlər" [10, 1918, 29 noyabr].

Azərbaycan Xalq Cümhuriyyəti gərgin etnosiyasi vəziyyətə baxmayaraq, demokratik dövlət kimi insan hüquqları, dil, din, təhsil sahəsində heç bir diskriminasiyaya yol vermirdi. Azərbaycan Parlamentində təmsil olunmaq üçün ruslara 10, ermənilərə 21, digər milli azlıqlara- almanlara, polyaklara, gürcülərə və yəhudilərə isə hərəsinə 1 yer verilmişdi [9, f.894, siy,10, iş 187, vər.1-2].

Azərbaycanın rus əhalisinin burjua-kadet dairələri böyük dövlətçilik arzularından əl çəkməyərək, Azərbaycanda qanunverici hakimiyyətin təşkilini ləngidirdi. Rus Milli Şurası öz nümayəndələrini Azərbaycan Parlamentinə göndərməyi qeyri-mümkün hesab edirdi. O, Ümumrusiya Müəssislər Məclisi çağrılanadək yerli qanunverici orqanın təşkilini arzuolunmaz hesab edirdi. Rus Milli Şurası Azərbaycanın müstəqilliyinin ləğvi və Ufa hökumətinin tanınması haqqında məsələ qaldırmışdı. Ufa hökumətinin proqram platformasında müstəqil dövlətlərin ittifaqı-federativ qurumu qəbul edilirdi. Bu dövlətlər öz parlamentinə malik olub, mərkəzə ancaq suveren hüquqlarının bir hissəsini güzəştə gedirdi. Rus milli şurası isə xalqların öz ölkəsini idarə etmək hüququnu qəbul etmirdi.

Azərbaycan Milli Şurası və hökuməti milli azlıqlarla razılığa gəlmək üçün Rusiyanın ərazi bütövlüyü məsələsini açıq saxlayaraq, onu ümumdünya konfransının müzakirəsinə çıxarmağı təklif edən platformadan çıxış edirdi [7, s.345].

1918-ci il dekabrın 7-də fəaliyyətə başlayan Parlamentdə öz bəyannamələri ilə çıxış edən polyak, alman və gürcü deputatlar Azərbaycan xalqının gələcək səadətini müstəqillikdə gördükləri halda, Yəhudi Milli şurasının üzvü "Azərbaycan türklərini gələcək Ümumrusiya siyasi ailəsinin bərabərhüquqlu üzvü kimi Rusiya Federativ Respublikasının tərkibində görmək" arzusunu bildirirdi. "Slavyan-rus cəmiyyəti"nin bəyannaməsində isə açıq-aşkar "Vahid bölünməz Rusiya" şüarı irəli sürülür və Müttəfiq dövlətlərin Rusiyanı 1914-cü il sərhədləri daxilində bərpa etmək vədləri xüsusilə vurğulanırdı. "Biz bilirik ki, Rusiya xalqları şovinizmlə zəhərlənməyərək, öz rifahları naminə Böyük Rusiyadan ayrılmayacaq" - deyən M.N.Vinaqradov azad Azərbaycanı Rusiya bolşeviklərdən təmiz-

lənib, Ümumrusiya Müəssislər Məclisi çağırılınadək məqbul sayırdı. Çünki özünün etiraf etdiyi kimi "vətəndən didərgin düşmüş rus ziyalıları bu normal həyat adasında sığınacaq tapmışdılar" [9, f.895, s.1, iş 1, vər.12-21].

Azərbaycan dövlətçiliyinin siyasi reallığa çevrildiyini dərk edən Rus Milli Şurası 1919-cu il 31 yanvar tarixli qətnaməsi ilə öz nümayəndələrini Parlamentə göndərməyi qərara aldı. Bununla belə rus millətçiləri Şimali Qafqazdakı denikinçilərlə əlaqə saxlayaraq, Azərbaycan dövlətçiliyinə qarşı qəsd hazırlayırdılar.

Parlamentin Rəyasət heyəti Ukrayna Radasının Rus Milli Şurasından əlahiddə olaraq 2 yer ayrılması xahişini nəzərə alaraq, Parlamentdə onlara 1 yer ayırdı. Ukraynalıları Parlamentdə V.N.Kujim təmsil edirdi.

Lənkəran qəzasının rus əhalisi də Azərbaycan hökumətini qəbul etmirdi. Burada əvvəl denikinpərəst qüvvələr, sonra isə bolşeviklərin tərəfdarları hakimiyyəti öz əlinə keçirmişdi. Belə ki, 1919-cu il mayın 15-də Muğan Sovet Respublikası yaradılmışdı. Lakin polkovnik İlyaşeviçin rəhbərlik etdiyi Denikin tərəfdarları ilə Suxorukovun başçılığı altında bolşevik tərəfdarları arasında düşmənçilikdən istifadə edən Azərbaycan hökuməti burada öz hakimiyyətini bərqərar etdi. 1919-cu il avqustun 19-da Britaniya nümayəndələri mayor L.Torin və F.L.Konan-Roanın vasitəçiliyi ilə Muğanın Azərbaycan hakimiyyətini tanınması haqqında sülh müqaviləsi bağlandı. Onun şərtlərinə görə rus əhalisinun şəxsiyyət toxunulmazlığı və dini etiqad azadlığı təmin edilməli idi. Rus əhalisi inzibati idarəçilikdə iştirak etməli idi, lakin hərbi mükəlləfiyyətdən azad edildi. Rusiyaya köçmək arzusunda olan rus təbəələrinin Lənkarandan sərbəst gedişinə şarait yaradılırdı. Rusiyaya köçmək istəməyənlər isə ictimai asayiş üçün təhlükəli olmayanadək Muğanda qala bilərdilər.

Muğanın rus əhalisini parlamentdə təmsil etmək üçün 1 yer verildi. Lənkəranda hakimiyyətinin təşkili general-qubernatora tapşırıldı. Qəza rəisi kənardan dəvət edilmiş azərbaycanlı, onun köməkçilərindən biri isə rus olmalı idi [9, f.894, s.10, iş 57, v.12].

Azərbaycan torpaqları hesabına böyük dövlət yaratmaq iddiasında olan ermənilər Azərbaycan dövlətinin süqutunu ən çox arzulayan potensial düşmən qüvvə idi. Ağır siyasi şəraitdə Azərbaycan hökumətindən digər ərazi iddialarından əl çəkmək şərtilə İrəvan şəhərini alan Ermənistan hökuməti Paris sülh konfransında daha geniş ərazilər tələb etməkdə ikən Azərbaycan ermənіləri də Qarabağ, Zəngəzur, Naxçıvan ərazilərində qan tökməkdə idilər. Onların məqsədi Paris sülh konfransınadək bu əraziləri yerli sakinlərdən – türk-müsəlman əhalidən təmizləmək və dərhal ermənilərlə məskunlaşdırmaq, bununla da, ərazi iddialarını "əsaslandırmaq" idi. 1918-ci ilin yayında Azərbaycan hökuməti Gəncə quberniyasının dağlıq hissəsində tərkisilah əməliyyatı aparması silahlı toqquşmalara son qoymaq məqsədi güdürdü.

Gəncə qubernatoru İbrahim ağa Vəkilov Azərbaycan hökumətinə hesabatında yazırdı: "Ermənilər müsəlmanlara nifrətdən və qana hərislikdən doymayaraq, müsəlman kəndlərini dağıtmaq, əhalisini qılıncdan keçirmək kimi düşmən əməllərini dayandırmırlar. Onların vəhşiliyinin həddi yoxdur. Bu vəhşiliklərin qarşısında orta əsr dəhşətləri solğun görünür. İnanmaq olmur ki, XX əsrdə belə bir xalq yaşayır və müdafiəsiz dinc əhaliyə qarşı bütün vəhşilikləri tətbiq edirlər: uşaqları odda yandırır, insanların dilini, qulağını kəsir, işgəncələr verir, təhqiramiz şəkildə qətlə yetirirdilər... Bizim Respublikanın şüarı belədir: millətindən asılı olmayaraq hamı qanun və hökumət qarşısında bərabərdir. Lakin qeyri-ixtiyari düşünmək lazım gəlir - ilahi və bəşəri qanunları tanımayan bir xalq belə bir münasibətə layiqdirmi?!" [9, f.894, s.10, iş 104, v.2].

1918-ci ilin payızında Zəngəzurun bir hissəsində möhkəmlənən Andranik burada bir növ erməni "qubernatorluğu" təşkil edərək, Gorusu onun "mərkəzi"nə çevirmişdi, sonra da "paytaxtı" Şuşa olacaq "Kicik Ermənistan" dövlətini yaratmağa çalışırdı [2, s.190-191]. Qarabağ ermənіləri də Ararat Respublikasına birləşmək uğrunda mübarizə aparırdılar. Ermənistanın fəal təbliğatı və guclu siyasi-hərbi yardımı sayəsində Qarabağın dağlıq hissəsində yaşayan ermənilər 1918-ci ilin iyulunda Şuşada kecirilən I qurultayında bu mahalın mustəqilliyini elan etdi.

Azərbaycan hökuməti Qarabağda erməni separatizminə qarşı siyasi, diplomatik, hərbi tədbirlər həyata keçirərək, 1919-cu il 15 yanvar tarixli sərəncamı ilə Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarından ibarət general-qubernatorluq yaratdı. Ermənilər Qarabağ general-qubernatoru X.Sulta-

novun hakimiyyətini tanımayaraq, "ölümü müsəlmanlara tabe olmaqdan üstün tuturdular" [9, f.894, s.1, iş 22, v.19].

1919-cu il fevralın 25-də erməni fraksiyası öz bəyanatını oxumaqla Azərbaycan parlamentində təxribatçı fəaliyyətinə başladı [4, I c., s.218].

Ermənilər ingilislərin himayəsi ilə Naxçıvan mahalında da öz "idarəçiliyini" yaratmağa cəhdlər göstərmişdilər. Culfaya qədər ərazini özlərininki sayan ermənilər gürcülərlə hərbi toqquşmadan, Şərur məğlubiyyətdən sonra burada ingilis general-qubernatorluğunun elan edilməsi ilə müvəqqəti olaraq bu fikirlərindən əl çəkmişdilər. Naxçıvan Milli Şurası isə vilayət əhalisinin təkidi ilə Azərbaycan hökumətinə könüllü birləşmək haqqında rəsmi sənəd göndərmişdir. Azərbaycan hökuməti 1919-cu il 28 fevral tarixli qərarı ilə Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu yaratdı [8, s.282-283].

1919-cu il iyulun 19-25-də aparılan uğurlu döyuşlər erməni "idarəciliyi"nin bölgədən qovulması ilə nəticələndi [2, s. 211].

Qarabağ general-qubernatorluğunun siyasi-hərbi tədbirlərinin nəticəsində bu bölgədə də analoji proses baş verdi. Belə ki, Qarabağ ermənilərinin 1919-cu ilin avqustunda kecirilən VII qurultayında Azərbaycan Cümhuriyyəti hakimiyyətinin tanınması barədə akt qəbul edildi.

1920-ci ilin əvvəllərində erməni daşnakların təcavüzkar fəaliyyətləri daha kəskin xarakter almağa başladı. Erməni silahlı qüvvələri 1920-ci il yanvarın 19-25-də Zəngəzurda 51 azərbaycanlı kəndini dağıtdılar. Mart ayının 23-də Qarabağda başlayan erməni üsyanı isə milli dövlətçiliyimizə qarşı yönəlmiş məkrli siyasətlərinin zirvə nöqtəsi oldu. Ermənilər bu dəfə Sovet Rusiyasının köməyilə Azərbaycan torpaqlarını ələ keçirməyi planlaşdırırdı. Hökuməti tərəfindən bir sıra təcili tədbirlər həyata keçirildi. Naxçıvan, Qarabağ və Zəngəzurdakı döyuşlərdə ermənilər çox ağır məğlubiyyətə düçar oldular. Erməni nizami ordusu hissələrinin mart ayında Şərur və Ordubada hücumları Kəlbəli xanın silahlı dəstələri və Türkiyənin mahaldakı kiçik döyuş dəstəsinin birgə səyləri nəticəsində dəf olundu, onlar xeyli itki verərək geri çəkildilər [2, s.222-225].

Zaqatalada da mürəkkəb vəziyyət yaranmışdı. Zaqatala Milli Şurası 28 iyul 1918-ci il tarixli qərarı ilə Azərbaycan hökumətini tanıdığını bildirmiş və iyunun 30-da Zaqatala ayrıca quberniya şəkilində Azərbaycan Cümhuriyyətinin tərkibinə daxil edilmişdir. Lakin bəzi qüvvələr Dağıstan və Gürcüstanın nüfuzlu dairələri ilə yaxın idilər və tərəddüd edirdilər. Azərbaycan hökumətinin bir sıra tədbirləri – 2 illik vergi borclarının ödənilməsinin tələb edilməsi, ordunun nəfinə vergi yığılması, hərbi mükəlləfiyyətin tətbiq edilməsi və s. yerli əhalini narazı salır, hətta hökumətə qarşı ədavət doğururdu. Xalq hakimiyyətinə alışmış Zaqatala sakinləri öz əvvəlki imtiyazlarını saxlamağa çalışırdılar. Burada ruhanilərin əhaliyə təsiri güclü idi və onu istədiyi səmtə istiqamətləndirə bilirdi. Bir-biri ilə düşmənçilik edən kiçik partiyaların fəaliyyəti də anarxiya yaradırdı. Vəziyyəti sabitləşdirmək üçün Azərbaycan hökuməti burada general-qubernatorluq yaratmışdı.

Zaqatalada hökumət əleyhinə fəaliyyət göstərən bir qrup rus və digər xristian etiqadlılar öz məkirli planlarını həyata keçirmək üçün hələ 1918-ci ilin dekabrından Şura yaratmışdılar. Lakin onun zərərli fəaliyyətini nəzərə alaraq, general-qublernator Həşimbəyov onu buraxmaq haqqında göstəriş vermişdir. Təəssüf doğuran belə bir hal idi ki, bu şura ilə hakimiyyətə müxalif olan yerli qüvvələr də əməkdaşlıq edirdi. Qubernator vəzifəsini tutmaq niyyətində olan məktəb müfəttişi İslam bəy Qəbulov yerli hakimiyyəti xalqın gözündən salmağa çalışır, vəzifə iddiasında olanları ətrafına toplayırdı. Laqodex qarnizonunun rəisi polkovnik Nadirov isə Qaxa gələrək xristian əhalini silahlandırırdı. Onun məqsədi bu idi ki, əhali könüllü olaraq Gürcüstana təslim olmasa, xristian əhalinin köməyi ilə döyüşlə quberniyanı ələ keçirsin.

Quba qəzasında da bəzi qüvvələr separatçı mövqedən çıxış edirdilər. Belə ki, Müvəqqəti hökumət dövründə Quba qəza komissarı olmuş Əli bəy Ziziski, qohumu Şıxlariski bəyləri, barışıq hakimi Cəlilov Qusar dairəsini Dagıstana birləşdirməyə çalışırdılar. Quba qəza rəisi Əmirxan Xoyski Bakı qubernatoruna göndərdiyi 24 avqust 1918-ci il tarixli raportda bu haqda məlumat vermiş və bu şəxsləri tezliklə qəzadan uzaqlaşdırmağı tələb etmişdi. Bakı qubernatoru Məmməd Fəthi bəy quberniyanın şimal bölgələrində asayişi bərpa etmək üçün Quba əhalisi ilə görüşdə bütün müsəlmanları Qurana and verib birliyə çağırmış, birgə çalışmağı və qonşularla dinc yaşayışı tövsiyyə etmişdi. Qu-

bernator Qusarda olarkən də xalqı hökuməti və yerli hakimiyyəti tanımağa, vətəni müdafiə etməyə çağırmışdı [10, 1918, 16 oktyabr].

1919-cu ilin 22 yanvarında Cəlilov Temirxan Şuraya Dağlılar İttifaqının vilayət qurultayına Quba, Qusar ləzgiləri adından teleqram vurub, "Dağıstana birləşmək – ya sizinlə yaşamaq, ya da ölmək!" arzusunu bildirmişdi. Lakin Azərbaycan hökumətinin ardıcıl yeritdiyi milli siyasəti separatizm hallarının qarşısını alır və hər yerdə öz hakimiyyətini bərqərar edirdi.

Nəticə. Beləliklə, Cümhuriyyət dövründə milli azlıqların separatçılıq meyllərinə baxmayaraq, Azərbaycan hökumətinin milli siyasəti bütün millətlərin azad və bərabər yaşayışını, vətəndaşlıq hüquqlarını təmin edir və heç bir milli ayrıseçkiliyə yol verilmirdi. Həmçinin, Azərbaycan hökumətinin dini siyasəti həyata keçirilərkən də milli azlıqların maraqları nəzərə alınır, qeyri-müsəlman dinlərinə də diqqət göstərilirdi. Belə ki, rus pravoslav kilsəsi, katolik kilsəsi, babtist və malakan dini icmaları, erməni yeparxiyası, yəhudi ravvinliyi Hökumət tərəfindən maddi yardım alır, normal fəaliyyət göstərmələri üçün onlara hər cür şərait yaradılırdı [6, s.167]. Bu bir daha sübut edir ki, Azərbaycan Cümhuriyyəti tolerant və multikultural dəyərlərə sadiq olmuşdur.

ƏDƏBİYYAT

1. Адрес-календарь Азербайджанской Республики. Баку, 1920,
2. Azərbaycan Cümhuriyyəti. (1918-1920). Bakı: "Elm", 1998. - 336 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası.İki cilddə. I c. Bakı: "Lider Nəşriyyatı", 2004. - 440 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), İki cilddə. I c. Bakı: "Azərbaycan", 1998. – 976 s.
5. Arzumanlı V. Azərbaycan Xalq Cümhuriyyətinin milli siyasəti. Bakı: Qartal, 1998. - 199 s.
6. Azərbaycan Xalq Cümhuriyyəti. Dövlət və din münasibətləri. Bakı: Nurlar, 2018. - 320 s.
7. Azərbaycan tarixi. 7 cilddə.V c. Bakı: "Elm", 2001. - 672 s.
8. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов). Баку: "Азербайджан", 1998. - 560 с.
9. Azərbaycan Respublikası Dövlət Arxivi, f.894, s.10, iş.108, v.8-9; f.894, s.10, iş 57, v.12-13; f.894, s.1, iş 22, v.19; f.894, s.10, iş 187, v.1-2; f. 894, s.10, iş 57, v.17-19; iş 103, v.4, 10-11; 894, s.2, iş 81, v.9; iş 39, v.53-54; iş 9, v.36-37, v.39, v. 17-18, iş 88, v.7-7 arx; v. 8-10; iş 39, v.114; v. 25 arx.; f.895, s.1, iş 1, v.12-21; f.970, s.1, iş 142, v.56-63.
10."Азербайджан», 1918, 1919.
11. Azərbaycan Paris Sülh Konfransında. (1919-1920). Bakı: Ozan, 2008. - 244 s.
12. Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokollar. 1918-ci il. Bakı: "Adil oğlu" nəşriyyatı, 2006. - 136 s.
13. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, Bakı, Bakı Universiteti nəşriyyatı, 1998. – 385 s.

АРИФА АДЫГОЗАЛОВА
Доцент кафедры новой и новейшей истории Азербайджана Бакинского государственного университета

НАЦИОНАЛЬНАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

В Декларации независимости, принятой 28 мая 1918 года, правительство Азербайджана, провозгласившее равенство прав всех наций, последовало этому принципу в государственном строительстве. Не было никаких ограничений на деятельность политически надежных представителей иностранных национальностей в органах государственной власти. Однако русские националисты, до сих пор считающие себя подданными России, не захотели призна-

вать государственную независимость Азербайджана. Они боролись за великие цели государственности, такие как «Единая, неделимая Россия».

Армяне, проживающие в Азербайджане, проливали кровь на территориях Карабаха, Зангезура и Нахчывана. Армяне Карабаха боролись за присоединение к Араратской Республике. Однако правительство Азербайджана проводило последовательную политику, предотвращало случаи сепаратизма и повсеместно установило свою власть.

Ключевые слова: Азербайджанская Демократическая Республика, национальная политика, национальные меньшинства, сепаратизм, территориальные претензии, национальный конфликт.

ARİFA ADİGOZALOVA
Associate professor of the department new and modern history of Azerbaijan,
Baku State University

THE NATIONAL POLİCY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

The government of Azerbaijan, which proclaimed the equality of all nations in the Declaration of Independence adopted on May 28, 1918, followed this principle in state-building. There were no restrictions on the activities of politically credible representatives of other nationalities in government. However, Russian nationalists, who still consider themselves Russian citizens, did not want to recognize the state independence of Azerbaijan. They were fighting for great statehood, such as a united, indivisible Russia.

Azerbaijani Armenians were also shedding blood in Karabakh, Zangazur and Nakhchivan. The Armenians of Karabakh also fought for the unification of the Ararat Republic. However, the government of Azerbaijan pursued a consistent policy, preventing separatism and establishing its rule everywhere.

Keywords: Azerbaijan Democratic Republic, national policy, national minorities, separatism, territorial claims, national conflicts.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. İbrahim Zeynalov.